BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 Humanitar elmlər seriyası 2011

UOT 94 (479.24)
930.85

# ƏLLAMƏ ŞƏMSƏDDİN MƏHƏMMƏD İBN MAHMUD AMULİNİN «NƏFAİS ƏL-FÜNUN Fİ ƏRAİS ƏL-ÜYUN» ADLI ƏSƏRİ ORTA ƏSR AZƏRBAYCAN, İSLAM MƏDƏNİYYƏTİ TARİXİ ÜZRƏ MƏNBƏ KİMİ

**E.R.QULİYEV**
*AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutu*
*elkhan2000@yahoo.com*

*«Şəmsəddin Amuli» ləqəbi ilə tanınan Əllamə Məhəmməd ibn Mahmud XIII-XIV əsrlərdə yaşayıb-yaratmış islam alimlərindən biri olmuşdur. Bu alimin ən məşhur və dəyərli əsəri, fars dilində yazılmış «Nəfais əl-fünun fi Ərais əl-üyun» adlı əsəridir. Üç cilddə çap edilmiş bu kitab qədim elmlərə dair müfəssəl elmi-ensiklopedik bir əsər hesab olunur. Əsərdə dövrün 120-yə yaxın elmi və onların müxtəlif sahələri böyük məharətlə işıqlandırılmış, elmin mürəkkəb məsələləri çox sadə dildə şərh edilmişdir. Qeyd etmək lazımdır ki, XIII-XIV əsrlərdə Azərbaycanda elm və mədəniyyətilə bağlı zəngin məlumata daşıyan bu əsər Azərbaycan tarixi baxımından hədsiz əhəmiyyətə malik olan mənbələr sırasına daxil edilə bilər. Biz bu dəyərli əsərin XIII-XIV əsrlərdə Azərbaycanda elm və mədəniyyət tarixinin nisbətən geniş şəkildə işıqlandırılması istiqamətində xüsusi rol oynayacağına inanırıq.*

**Açar sözlər:** Şəmsəddin Amuli, «Nəfais əl-fünun fi Ərais əl-üyun, Azərbaycan, islam mədəniyyəti, farsdilli mənbə

Azərbaycanın orta əsrlər tarixinin hərtərəfli tədqiq edilməsi, öyrənilməsi və təbliği ilk mənbələrin varlığından, az-çoxluğundan və elmi səviyyəsindən çox asılıdır. Tariximizin bir sıra dövrlərinin indiyə kimi ətraflı öyrənilməməsinin əsas səbəbi yazılı məxəzlərin qıtlığı, mövcud olanların isə dərindən tədqiq edilməməsi və ətraflı araşdırılmamasıdır. XIII-XIV əsrlərə dair mənbələrə gəlincə, onların azlığından danışmaq doğru olmazdı (3, 125). Bu əsrlərdə Şərq ölkələrində, o cümlədən Azərbaycanda və İranda tarix elmi nəzərə çarpacaq dərəcədə irəliləmişdi (7, 3). Heç təsadüfi deyil ki, akademik V.V.Bartold bu dövrü «Fars (İran) tarixşünaslığının qızıl əsrləri» adlandırmışdır. Qeyd etmək lazımdır ki, fars dili XIV əsrədək Yaxın və Orta Şərqdə bədii-ədəbi dil funksiyasını yerinə yetirmişdir. Həmin dövrdə çoxlu tarix əsərləri meydana gəlmişdir ki, onlardan 70-dən artığı zəmanəmizə qədər gəlib çıxmışdır (2, 6; 6, 88). Belə əsərlərdən biri də Əllamə Şəmsəddin Məhəmməd ibn Mahmud Amulinin «Nəfais əl-fünun fi Ərais əl-üyun» adlı əsəridir. Hazırkı məqalədə adı çəkilən əsərin tanıdılmasına, onun Azərbaycan tarixşünaslığında nə dərəcədə əhəmiy-

yətli olmasına dair nisbətən geniş məlumat verilmişdir. Qeyd etmək lazımdır ki, XIII-XIV əsrlərdə Azərbaycanda elm və mədəniyyətlə bağlı zəngin məlumata malik olan bu əsər Azərbaycan tarixi baxımından böyük əhəmiyyətə malik olan mənbələr sırasına daxil edilə bilər.

«Şəmsəddin Amuli» ləqəbi ilə tanınan Əllamə Məhəmməd ibn Mahmud XIII-XIV (hc.VII-VIII) əsrlərdə yaşayıb-yaratmış islam alimlərindən biri olmuşdur. O, XIII (hc.VII) əsrin ikinci yarısında Amulda (Mazandaran vilayəti) anadan olmuşdur və Ulcaytu xanın dövründə (1304-1317) Sultaniyyə şəhərinə dəvət olunmuş, ora getdikdə isə Ulcaytu xan və onun vəziri Fəzlullah Rəşidəddinin rəğbətini qazanaraq, Sultaniyyə mədrəsəsinin müdərrisi və müəllimi vəzifəsinə təyin edilmişdir (1, c.1, 13).

Əllamə Şəmsəddin Amuli ərəb və fars dillərində bir neçə dəyərli əsərin müəllifidir. Amma bu alimin ən məşhur əsəri fars dilində yazdığı «Nəfaisə əl-fünun fi Ərais əl-üyun» «Çeşmələr incilərində nəfis elm sahələri» əsəridir. Üç cilddən ibarət bu kitab sözügedən dövrün müfəssəl elmi-ensiklopedik bir əsəri hesab olunur. Belə ki, əsərdə 120-yə yaxın elm və onların müxtəlif sahələri böyük məharətlə işıqlandırılmış, elmin mürəkkəb məsələləri çox sadə bir dildə şərh edilmişdir (1, c.1, 13).

Orta əsr müəllifləri, bir qayda olaraq tarixi hadisələri daha öncə yazılmış əsərlərdən tənqid etmədən, bir çox hallarda isə köçürərək nəql etmişlər (5, 11). Amma bir üstün cəhət olaraq sözügedən mənbədə bu ənənəyə riayət edilməmişdir. Şəmsəddin Amuli həmin əsərdə ilk öncə giriş sözü ilə çıxış etmiş, birinci fayda olaraq elmin üstünlükləri, ikinci fayda kimi elmin müxtəlif sahələrə bölünməsi və üçüncü fayda olaraq əsərin hazırlanması barədə orijinal məlumat vermişdir. Müəllif XIII-XIV əsrlərdə Azərbaycan və islam alimlərinin elmi səviyyəsi, onların dünyəvi elmlərə yanaşma tərzi kimi mühüm məsələləri nisbətən geniş şəkildə işıqlandırmışdır (1, c.1, 9,14,16).

Müəllifin giriş sözündən sonra qədim dövrlərə aid yetmiş beş elm və otuz altı elm sahəsi barədə verdiyi elmi açıqlamalar diqqəti xüsusilə cəlb edir. O, 1335-cı (hc.736) ildə başladığı, 1341-ci (hc.742) ildə tamamladığı həmin ensiklopedik əsərdə elmin hər bir sahəsini müxtəlif fəsil və bablara bölərək şərh etmişdir. Əsərin tarix bölümündə Sultan Əbu Səidin vəfat etdiyi dövrə (1335) qədər baş vermiş tarixi hadisələr öz əksini tapmışdır. Əsərin giriş bölümündə isə elmin fəzilət və üstünlükləri barədə maraqlı fəlsəfi açıqlamalar verilmişdir (1, c.1, 9).

Əsərdə əks etdirilmiş ensiklopedik məlumatlarından belə nəticə əldə olunur ki, bəzi müasir tədqiqatçıların haqsız ehtimallarının əksi olaraq, Azərbaycan, islam alimləri hələ qədim dövrlərdən etibarən metafizika sahəsi ilə yanaşı, fizika və dünyəvi elmlərə də xüsusi rəğbətlə yanaşmış, elmin heç bir sahəsinə qarşı çıxış etməmişdir.

XIII-XIV əsrlərə aid bütün elm sahələrini özündə ehtiva edən həmin tarixi-elmi əsərdə müəllif ilk öncə elmə geniş və əhatəli bir tərif vermiş, sonra isə onu bir neçə sahəyə bölərək oxuculara təqdim etmişdir. Şəmsəddin Amuli

hər bir elmin tərkib hissələrini ayrı-ayrılıqda tədqiq etmiş və bu sırada elmin heç bir sahəsi onun qələmindən kənarda qalmamışdır.

Müəllif bu əsərdə dövrün ənənəvi qaydasına uyğun olaraq elmi müxtəlif sahələrə; «hikmətli elmlər» və «qeyri-hikmətli elmlər»ə bölür və həmin təsnifata əsasən də bəhsini davam etdirir. Bu isə orta əsrlərdə Azərbaycan, islam alimlərinin elmi səviyyəsi, onların müxtəlif elm sahələrinə yanaşma tərzi və s. kimi mühüm məsələlər barədə nisbətən geniş təsəvvür yaradır (1, c.1, 14).

Beləliklə müəllif əsərin əsasını hikmətli və qeyri-hikmətli elmlər bölgüsü üzərində qurur və onları iki qismə «ülum-i əvail = ilkin elmlər» və «ülum-i əvaxir = sonuncu elmlər»ə bölür. Şəmsəddin Amuli ilk növbədə «ülum-i əvaxir»i şərh edir və onları dörd hissəyə bölür və bu bölümlərin hər birinin bir neçə sahədən ibarət olduğunu göstərir;

**Ülum-i əvaxir:** A-Ədəbi elmlər; buraya daxil edilir: xəttatlıq, dil, sintaksis, (اشتقاق) alınma sözlər, morfologiya,(معانى )məani, (بيان) bəyan, بديع bədi, (عروض) əruz, (قافيه ) qafiyələr, (تقريض) təqriz, (امثال ) əmsal, (ديوان) divanlar, (انشاء) inşa, (استيفا) istifa; B-Şəriət elmləri; buraya daxil edilir: kəlam elmi, təfsir, hədis, üsul, fiqh, qiraət, əxlaq, şəriət qanunlarına uyğun olan hüquqi qeydiyyatlar, dəəvat (دعوات); C-Təsəvvüf elmi; buraya daxil edilir: سلوك Süluk, حفيفت həqiqət,مراصد mərasid, حروف hüruf, فتوت fütuvvət; D-Rəvayət və nəql olunan elmlər; buraya daxil edilir: Nəql olunan elmin özü, tarix və avtobioqrafiyalar, dünya insanlarının söylədikləri sözlər, qüzvə elmi və Rəsulullahın (s.ə.v) döyüşləri, həcc mərasimi və hacılara aid (احاجى) elm.

Kitabın digər bir bölümü isə «əvail elmlər»ə həsr edilmişdir.

**Ülum-i Əvail:** A-Hikmət; buraya daxil edilir: Əxlaqın təhzibi və təmizlənməsi, siyasət, mənzil və şəhərlərin idarəetmə qaydaları; B-Nəzəri hikmətin əsasları: buraya daxildir: Məntiq, fəlsəfə, ilahiyyat, təbiət elmləri; C-Riyaziyyat elmləri: buraya daxildir: İsteqsat (həndəsə), nücum (astronomiya), ərsmatiqi (ədədlər); D-Təbiət elmlərinin sahələri; burya daxildir: Təbabət elmi, kimya, simya (təsxir və tilsim elmi), yuxu yozmaları, vərasət elmi, nücum elminin qaydaları, əşyaların xassələri, təbii hərf elmi, heyvanat Aləmi; H-Riyaziyyat elmləri; buraya daxildir: Heyət (astrologiya), mənazer, hesab elmi, cəbr və müqabilə, sahə və ölçü, astrologiya, rəqəm və üsterlab, coğrafiya ( مسالك و ممالك), ədədlərin uyğunlaşdırılması, rəməl (رمل), hiyəl (حيل), oyunlar.

Əsərin tarix bölümündə dünyanın ümumi tarixi, dünyanın yaradılışı, Adəm (ə) dövründən başlayaraq fars hökmdarları Kəyumərs, Pişdadilər, Əşkanilər, Sasanilər dövrünü, həmçinin islamdan sonraki hökmdarların, müəllifin müasiri olan Ulcaytu Sultan Məhəmməd Xüdabəndənin dövrünədək baş vermiş tarixi hadisələr öz əksini tapmışdır. Əsərdə yəhudi, xristian dini, eləcə də islamın müxtəlif firqə və təriqətləri, o cümlədən mötəzilə, cəbriyyə, sifatiyyə, xəvaric, mürciə, vəidiyyə və şiə məzhəbləri barədə geniş məlumat verilir.

Əsərin çap olunmuş üçüncü cildində texniki elmlərə dair çox müfəssəl məlumat verilmişdir və burada riyaziyyat elmi özünəməxsus yer tutur. Belə ki, müəllif riyaziyyat elminin dörd müxtəlif texniki sahələrdən ibarət olduğunu

vurğulayır: 1-Həndəsə (İstiqsat) fənni, 2-Nücum (Astronomiya), 3-Ədədlər, 4-Musiqi (1, c.3, 2).

Müəllif həndəsə bölümündə bu elmin tarixçəsi, onun əsasını qoymuş və bu sahə ilə bağlı fikir söyləmiş alimlər, o cümlədən Arximed, Əflatun və s. tanınmış şəxsiyyətlərin elmi baxışları və müxtəlif həndəsi fiqurlar barədə çox dəyərli elmi məlumat vermişdir (1, c.3, 3-26).

Əsərdə riyaziyyat elminin sayca üçüncü fənni olan ədədlərin xüsusiyyətlərini mütaliə etdikdə məlum olur ki, sözügedən dövrdə Azərbaycanda riyaziyyat elmi sahəsində kifayət qədər geniş məlumata malik olan alimlər və elmi əsərlər mövcud olmuşdur (1, c.3, 45-72).

Müəllif hesab və cəbr elmləri barədə verdiyi məlumat olduqca maraqlı və elmidir. O, əvvəlcə hesab elminin tərifi, mövzusu, ədədlərin xüsusiyyətləri barədə söz açır, sonra isə hesablama elminin beş müxtəlif hissədən; vurma, bölmə, nisbilik, mütənasib ədədlərin dördlüyü və xətalardan ibarət olduğunu vurğulayır və bunların hər biri barədə çox maraqlı elmi izahlar təqdim edir. Şəmsəddin Amuli həmçinin cəbr və müqabilə fənləri barədə müstəqil məqalə yazmış və riyaziyyat elminin bu sahəsini müfəssəl şəkildə şərh etmişdir (1, c.3, 413, 430).

Əsərin kimya elminə dair bölümünü oxuduqda, həmin dövrdə Azərbaycanda digər elmlərlə yanaşı kimya elminin də müəyyən dərəcədə inkişaf etdiyi məlum olur (1, c.3, 158).

Şəmsəddin Amuli tibb elmi bölümundə əvvəlcə bu elmin tərifini, sonra isə bu təriflə bağlı irəli sürülmüş iradlar barədə çox maraqlı elmi-fəlsəfi açıqlamalar vermişdir. O, tibb elmini iki qismə bölür: nəzəri və təcrübi. Nəzəri tibb elmi isə öz növbəsində beş fəsldən ibarət oluduğu göstərilir: 1-Əsas orqanlar, təbiət, qan, öd sovda və bəlğəm (əxlati-ərbəə *«اخلاط اربعه»* = *qədim tibb elmində orqanizm üçün zəruri sayılan dörd ünsür)* və qüvvələrin öyrənilməsi, 2-Bədən üzvlərinin təşrihi (açılması), 3-Xəstəliklər və səbəblər, 4- Simptomlar və səbəblər,5-Qida məmulatları, içməli mayelər, ədviyyələr və digər dənəlilər və onların faydaları (1, c.3, 109-138).

Müəllf təcrübi tibb elmini iki fəsildə təqdim etmişdir: 1-Sağlamlığın qorunması, 2-Müalicələr (1, c.3, 138-157).

Əsərdə astronomiya elminə dair çox geniş məlumat verilmişdir. Müəllif astronomiya elmini on bab və on altı ədədli qrafika çərçivəsində təqdim etmişdir. Əsərin belə bir dəqiqliklə hazırlanması onu göstərir ki, XIII-XIV əsrlərdə Azərbaycanda digər elmlərlə yanaşı astronomiya elmi də kifayət qədər inkişaf etmişdir (1, c.3, 26-45).

Şəmsəddin Amuli həmçinin astrologiya (heyət) elmi barədə də ayrıca məqalə təqdim etmişdir. Qeyd etmək lazımdır ki, astrologiyanı da riyaziyyat elminin bir sahəsi kimi təqdim edir. O, əsərin həmin bölümündə elmə məlum olan ulduzların adları, təxmini sayı və bürclər barədə çox dəyərli astroloji məlumat verməklə yanaşı, bir çox ulduz və bürclərin rəsmlərini yüksək dəqiqliklə təqdim etmişdir (1. c.3, 446)

Əsərdə kənd təsrrüfatına dair verilən elmi məlumat olduqca maraqlıdır. Müəllif bu elmi təbiət elmlərinin ən faydalısı olduğunu bildirir. O, öz elmi-tarixi əsərində əkinçilik, müxtəlif toxum və ağacların saxlanılması və becərilməsi, həmçinin onların xüsusiyyətləri barədə çox faydalı elmi məlumat vermişdir (1, c.3, 302 və 357).

Şəmsəddin Amuli musiqi elmini də nisbətən geniş formada işıqlandırmışdır. Əsərdə musiqi sənəti riyaziyyat elminin bir sahəsi kimi təqdim edilmişdir. Müəllif musiqini üç qismə bölmüşdür: 1-Nəzəri: (musiqi elminin mövzusunu və əsaslarını öyrənir), 2-Səslərin (notların) insan və ya musiqi alətləri vasitəsi ilə ifa edilməsi, 3-Səslərin (notların) yazılması. Müəllif son iki qismi «təcrübi sahə» adlandırmışdır. Əsərdə həmçinin musiqi elmində həndəsə və ədədlərin də rol oynadığı və bu məsələnin Pifaqor tərəfindən ortaya qoyulduğu qeyd edilmişdir (1, c.3, 73).

Şəmsəddin Amuli musiqi sahəsini elmi şəkildə təhlil etmiş və aşağıdakı mövzularla bağlı müfəssəl məlumat vermişdir: səs (avaz) və ona aid digər məsələlər: səsin tərifi və onun səslənmə keyfiyyəti, nəğmə, nəğmələrin musiqi alətləri vasitəsi ilə ifa edilməsi, səs növləri və onların tətbiq edilmə xüsusiyyətləri, səslərin nisbiliyi, mülayim, ya gur (bəm və zil) olması məsələsi, mülayimlik cəhətləri, musiqi alətləri və s. (1, c.3, 73-98).

Əsərdə musiqi alətlərinin ümumilikdə iki qismə bölündüyü bildirilir: 1-simli alətlər, 2-nəfəs alətləri. Müəllif Azərbaycan musiqi sənətinə məxsus olan qədim simli musiqi alətlərindən ud, saz, kamança və s., nəfəs alətlərindən isə ney, zurna və s. alətləri nümunə olaraq qeyd etmişdir. Müəllif Fərabinin dilindən nəql edir ki, «ən mükəmməl səslər insan boğazından çıxan səs, sonra isə nəfəs alətlərindən, xüsusilə də neydən çıxan səslərdir» (1, c.3, 99).

Şəmsəddin Amuli həmin bölümün ikinci fəslində müxtəlif pərdələr, avaz və şöbələrin tərkibi haqqında çox maraqlı məlumat verir. Onun türkcə sürud və nəğmələrin oxunduğu haqda verdiyi məlumat diqqəti xüsusilə cəlb edir. O, həmçinin qeyd edir ki, «günümüzdə məşhur olan pərdələrin sayı on ikidir: üşşaq, nəva, busəlik, rast, iraq, isfahan, kiçik, endirilmiş böyük, zəngulə, havi, hüseyni, hicaz». Müəllif həmin fəsildə şöbələrin doqquz olduğunu bildirir: «dügah, segah, çahargah, pəncgah, zavul və ya zabul, iraq, mübərqə, maye və şahnaz» (1, c.3, 102-103).

Mənbələrə görə Sultan Əbu Səidin (1316-1335) vəfatından və Azərbaycanda baş qaldırmış hərc-mərclikdən sonra Şəmsəddin Amuli Sultaniyyədən Şiraza getmiş və 1352 ildə həmin şəhərdə vəfat etmişdir. «Şədd əl-əzar» əsərində verilmiş məlumata görə isə onun Şiraz şəhərində dəfn olunduğu qeyd edilir (1, c.1, 13-14; 4, 345).

Yuxarıda qeyd olunanlar onu göstərir ki, XIII-XIV əsrlərdə Azərbaycanda elm və mədəniyyət kifayət qədər inkişaf etmiş və bu məsələ təqdim etdiyimiz əsərdə nisbətən geniş şəkildə öz əksini tapmışdır. Hesab edirik ki, Şəmsəddin Amulinin «Nəfais əl-fünun fi Ərais əl-üyun» adlı bu ensiklopedik əsərin, eləcə də bu günədək bizə məlum olan və olmayan digər tarixi mənbələrin

yaxın gələcəkdə tədqiqatçılarımız tərəfindən elmi dövriyyəyə təqdim edilməsi məsələsi həmişəki kimi öz aktuallağını qoruyub saxlayacaqdır. Biz bu dəyərli əsərin XIII-XIV əsrlərdə Azərbaycanda elm və mədəniyyət tarixinin nisbətən geniş şəkildə işıqlandırılması istiqamətində xüsusi rol oynayacağına inanır və ümid ediriki ki, hazırki məqalə bu sahədə göstərilən cəhdlərin sonuncusu olmayacaqdır.

## ƏDƏBİYYAT


1. علامه شمس الدین محمد بن محمود آملی، نفائس الفنون فی عرایس العیون، با مقدمه و تصحیح و پاورقی ابوالحسن شعرانی، مصحح جلد دوم: ابراهیم میانجی، انتشارات اسلامیه، تهران، چاپ سوم 1389 ه.ش، جلد اول، 595 ص: جلد دوم، 555 ص: جلد سوم، 576 ص.
2. Vaqif Piriyev, Azərbaycan XIII-XIV əsrlərdə, Bakı: Nurlan, 2003, 456 s.
3. Azərbaycan tarixi, 7 cilddə. III c., Bakı: Elm, 1999, 534 s.
4. Bünyadov Z.M. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). I cild, Bakı: Azərnəşr, 1994, 687 s.
5. Али-Заде А.А. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Баку: Элм, 1956, 420 с.
6. Xeyirbəy Qasımov, Orta əsrlərdə Azərbaycan ədəbiyyatı, Bakı: Aspoliqraf, 2008, 309 s.
7. Seyidağa Onullahi, XIII-XIV əsrlərdə Təbriz şəhəri (sosial-iqtisadi tarixi), Bakı: Elm, 1982, 240 s.


## КНИГА АЛЛАМЕ ШЕМСЕДДИНА МУХАММЕДА ИБН МАХМУДА АМУЛИ «НАФАИС АЛ-ФУНУН ФИ АРАИС АЛ-УЙУН» КАК ИСТОЧНИК ПО ИСТОРИИ АЗЕРБАЙДЖАНСКОЙ, ИСЛАМСКОЙ КУЛЬТУРЫ СРЕДНЕВЕКОВЬЯ


**Э.Р.ГУЛИЕВ**


### РЕЗЮМЕ


Алламе Мухаммед ибн Махмуд, известный под псевдонимом «Шемседдин Амули», был одним из видных ученых исламского мира живших в XIII – XIV вв. Труд «Нафаис ал-фунун фи Араис ал-уйун», написанный на персидском языке, является самым популярным произведением упомянутого учёного. При исследовании этого источника выясняется, что исламские богословы-ученые никогда не находились в оппозиции к светским наукам. Научно-энциклопедический труд, написанный на рубеже XIII – XIV вв. Алламе Мухаммедом ибн Махмудом, является наглядным примером, доказывающим вышеуказанное положение. Данная книга, состоящая из трех томов, считается обстоятельным научно-энциклопедическим трудом нашего автора о древних науках. В книге мастерски освещены около 120 наук и их различные отрасли, в очень доступном для читателей стиле изложены сложные вопросы науки.



**Ключевые слова:** Шамсаддин Амули, «Нафаис ал-фунун фи Араис ал-уйун», Азербайджан, исламская культура, персидскоязычный источник

# THE WORK “NEFAISUL-FUNUN FI ARAISUL’L-UYUN” BY ALLAMA SHAMSADDIN MAHAMMAD IBN MAHMUD AMULI AS A SOURCE ON THE HİSTORY OF MIDDLE AGES AZERBAIJANI AND ISLAMIC CULTURE

**E.R.GULIYEV**

## SUMMARY

Allama Mahammad ibn Mahmud known with his penname Shamsaddin Amuli, was one of the Islamic scientists and lived and created in XIII-XIV centuries. The most popular work of the scientist is “Nafaisa al-Funun fi Arais al-Uyun” written in the Persian language. While reading this work, it becomes clear that Islamic scientists had no contradictions against worldwide sciences just from ancient times. This scientific-encyclopedic work written by the prominent Islamic scientists in XIII-XIV centuries consist of three volumes and is considered one of the detailed scientific-encyclopedic works written about ancient sciences. Moreover, approximately 120 scientific works or works on different fields are elucidated very skillfully and complicated questions of science are explained in a simple way here.

**Key words:** Shamsaddin Amuli, “Nefaisul-funun fi Araisul’l-uyun”, Azerbaijani, Islamic culture, Persian language, source